*“Balakən Azərbaycanın çox gözəl guşəsidir”* **İlham ƏLİYEV**



# Yeni BALAKƏN

İCTİMAİ-SİYASİ QƏZET ✦ № 11 (18) ✦ 30 noyabr 2025-ci il

# Balakəndə Zəfər Günü silsilə tədbirlər və böyük coşqu ilə qeyd edildi











Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbənin 5-ci ildönümü münasibətilə Balakən rayonunda silsilə tədbirlər keçirilib. Zəfər Günü ilə əlaqədar Balakən şəhəri dövlət bayraqları, “Xarı bülbül” təsvirləri ilə bəzədilib, rayon mərkəzində yerləşən monitorda “Xarı bülbül” embleminin, Vətən müharibəsi şəhidlərinin şəkilləri və adları nümayiş etdirilib. Rayonun rəhbər işçiləri tərəfindən şəhid ailələri ziyarət olunub.

Əlamətdar tarixi gün münasibətilə noyabrın 8-də Balakən Rayon İcra Hakimiyyətinin əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, müharibə veteranları, ictimaiyyətin nümayəndələri əvvəlcə xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsinə ehtiramlarını bildiriblər. Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizə dərin hörmət əlaməti olaraq Şəhidlər Xiyabanını ziyarət edərək qəhrəman Vətən oğullarının xatirəsini yad ediblər.

Daha sonra 8 noyabr - Zəfər Gününün beşinci ildönümünə həsr olunmuş yürüş və rəsm sərgisi təşkil olunub.

Heydər Əliyev adına mədəniyyət və istirahət parkında davam etdirilən tədbirdə çıxış edən Balakən Rayon İcra Hakimiyyəti başçısının vəzifəsini müvəqqəti icra edən Turan Dibirov bildirib ki, 30 ilə yaxın işğal altında qalmış torpaqlarımızın azad edilməsi ilə nəticələnən Vətən müharibəsi Azərbaycanın şanlı tarixidir. Qeyd olunub ki, bu gün qürur, iftixar mənbəyi olan möhtəşəm Zəfərimizin 5-ci ildönümünü qeyd edirik. Artıq beş ildir ki, Azərbaycan xalqı yeni bir tarixin sevinci və qürurunu yaşayır. 8 Noyabr - Zəfər Günü tariximizin ən şanlı səhifəsidir və hər bir azərbaycanlı üçün müqəddəs bir gündür. Zəfər Günü - Azərbaycan xalqının mübarizliyinin, dövlət başçısının uzaqgörən siyasətinin, Ulu Öndər ideyalarının təntənəsi və qələbəsidir.

Tədbirdə çıxış edənlər - Milli Məclisin deputatı Nəsib Məhəməliyev, Azərbaycan Respublikasının əməkdar artisti Nailə İslamzadə, Vətən Müharibəsi Qəhrəmanı Fərid Əliyev bildiriblər ki, Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etməklə möhtərəm Ali Baş Komandan cənab İlham Əliyevin qüdrətli sərkərdəliyi, şanlı Ordumuzun və qəhrəman Xalqımızın sarsılmaz birliyi və iradəsi ilə tariximizin ən böyük, ən ehtişamlı Zəfərini qazanmışdır. Yeniləşən, inkişaf edən, getdikcə qüdrətlənən Azərbaycan Respublikası möhtəşəm Zəfəri, qələbələri və nailiyyətləri ilə bu gün də öz şərəfli tarixinə yeni səhifələr yazır. Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə olunan bütün bu uğurlar, nailiyyətlər, qələbələr, zəfərlər isə müstəqil və qüdrətli Azərbaycanı, qalib xalqımızı daha uca zirvələrə daşıyacaqdır.

Tədbir konsert proqramı ilə davam etdirilib. Rayon Mədəniyyət Mərkəzinin əməkdaşlarının hazırladığı ədəbi-bədii kompozisiyalar və musiqi nömrələri izləyicilərə bayram ovqatı bəxş edib.

Konsert proqramından sonra Balakən Rayon İcra Hakimiyyəti başçısının vəzifəsini müvəqqəti icra edən Turan Dibirov və Milli Məclisin deputatı Nəsib Məhəməliyev bir qrup şəhid ailələrini ziyarət edərək Zəfər Günü münasibətilə onları təbrik etdilər.Balakənin Zəfər Gününə həsr olunmuş ümumrayon tədbiri Olimpiya İdman Kompleksinin stadionunda Balakən və Bərdə futbol komandalarının yarışına start verilərək sona çatdı.

**Yeni Balakən**

## Yeni Təyinat

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Natiq Nuşravan oğlu Ağayev Balakən rayonuna icra başçısı təyin olundu



Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq qərara alıram:

Natiq Nuşravan oğlu Ağayev Göyçay Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

Başqa bir sərəncamla Natiq Ağayev Balakən rayonuna icra başçısı təyin olunub..

12 noyabr 2025, 13:13

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Balakən Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Natiq Nuşravan oğlu Ağayev noyabrın 13-də Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

“Yeni Balakən” xəbər verir ki, Zeynal Nağdəliyev təqdimatda çıxış edərək, dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

N.Ağayev ona göstərilən etimada görə minnətdarlıq edib.

# Yeni başlanğıc: Natiq Ağayevin ilk vətəndaş qəbulu



Balakən Rayon İcra Hakimiyyətinin yeni başçısı Natiq Ağayev bu gün ilk dəfə vətəndaşlarla rəsmi görüş keçirdi. Qəbul RİH binasında baş tutdu və yerli sakinlərin müxtəlif sosial, iqtisadi və məişət məsələləri ilə bağlı müraciətləri dinlənildi.

Bilindiyi kimi, Balakən RİH-də vətəndaş qəbulları hər həftənin üçüncü günü İcra Hakimiyyətinin inzibati binasında, dördüncü günlər isə kənd və qəsəbələrdə keçirilir. Bu görüşlər rayon rəhbərliyinin vətəndaşlara daha yaxın olmaq, onların problemlərini yerindəcə dinləmək və operativ həll yolları tapmaq məqsədini daşıyır.

Natiq Ağayevdən öncə onun Göyçayda vətəndaş sevgisi ilə qazandığı ad-sanı, ünü gəlib çatmışdı Balakənə. Bəlkə bu, bəlkə də gəldiyi ilk gündən Balakəndə gördüyü işlərin sakinlərdə yaratdığı xoş təəssürat, inam hissi idi — bilmirik. Amma bir şey aydın idi: bu günki qəbulda xeyli insan vardı. Xeyli də dərd, problem gətirmişdilər. Sanki uzun illərin dərdsərlərinə çarə, ümid işığını görürdülər Natiq Ağayevin nurlu üzündə, dodaqlarının arasından çıxacaq hər kəlməsində, sözündə… Elə olacağa da bənzəyirdi.

Başçı hər bir müraciəti diqqətlə dinləyərək, aidiyyəti üzrə tapşırıqlar verdi və problemlərin mərhələli şəkildə həll olunacağını bildirdi. Bu görüş, Balakəndə yeni bir idarəçilik ruhunun doğulduğunu göstərdi — həm ümidli, həm də insanlara yaxın.

**“İnsanların dərdini dinləmək, onları eşitmək - bizim borcumuzdur.” - Natiq Ağayev**

**Ramazan Abal**

# Balakəndə Dövlət Bayrağı Günü: Qürur, ehtiram və vətən sevgisi

Bayraq – bir millətin kimliyi, bir xalqın qürurudur. 9 Noyabr Dövlət Bayrağı Günü münasibətilə Balakən Bayraq Muzeyində keçirilən tədbir, bu qürurun canlı ifadəsinə çevrildi. Tarixlə duyğunun, ehtiramla vətən sevgisinin qovuşduğu bu gün, Balakənin yaddaşına qızıl hərflərlə yazıldı.Tarixə və şəhidlərə ehtiramla başlayan bu gün, bayrağımıza olan sonsuz sevginin ifadəsi oldu.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini müvəqqəti həyata keçirən Turan Dibirov, RİH kollektivi, YAP Balakən təşkilatının sədri Azad Balayev, hüquq mühafizə orqanlarının rəhbərləri, təhsil və səhiyyə sahəsinin nümayəndələri, Gənclər evi və idarəsi, bələdiyyə nümayəndələri, şəhid ailələri, qazilər, QHT-lər və digər ictimai qonaqlar iştirak edirdilər.

Tədbiri peşəkar aparıcı Arzu Ocaqverdiyev idarə edirdi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Ardınca bayrağın tarixinə həsr olunmuş film nümayiş olundu – ekran qarşısında susqunluq və qürur bir araya gəldi.




İlk çıxış edən Turan Dibirov, Dövlət Bayrağı Gününün təsisindən danışaraq vurğuladı ki, son beş ildə üçrəngli müqəddəs bayrağımız dövlətimizin bütün bölgələrində dalğalanır. O qeyd etdi ki, Ali Baş Komandanın komandanlığındakı müzəffər ordumuzun suverenliyini və ərazi bütövlüyünü bərpa etdiyi dövlətimizin hər bölgəsində bayrağımız əbədi dalğalanacaq...

Ardınca çıxış edən Turanə xanım, 2002-ci ildə Şəki şəhərində Ulu Öndər Heydər Əliyevlə görüşünü xatırladı. O zaman tələbə olan Turanə xanım görüş boyunca Azərbaycan bayrağını dik tutaraq sevgi və ehtiram nümayiş etdirmişdi. Bu davranışı Ulu Öndərin diqqətini çəkmiş, o Turanə xanımı yanına çağıraraq təşəkkür etmişdi. Turanə xanım həmin anları tədbir iştirakçıları ilə bölüşdü və bayrağa olan sevgisinin dərinliyini ifadə etdi.

“Bayraq yalnız bir simvol deyil – o, xalqın ruhudur. Mən o bayrağı tutarkən, sanki bütün Azərbaycanı qucaqlayırdım.” – Turanə xanım

Tədbir Balakən Mədəniyyət Mərkəzinin hazırladığı bayraq gününə həsr olunmuş bədii kompozisiya ilə davam etdi. Musiqi, şeir və teatr elementləri ilə zənginləşdirilmiş proqram bayrağa olan sevgini sənətin dili ilə ifadə etdi, iştirakçılarda qürur və duyğusal təəssürat yaratdı.

**Yeni Balakən**

# Balakəndə Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı Qeyd Olundu



Zəhmətə hörmət, torpağa sevgi – Balakən kənd təsərrüfatı işçiləri peşə bayramlarını birlik və qürurla qeyd etdilər.

1 noyabr – Kənd Təsərrüfatı İşçilərinin Peşə Bayramı münasibətilə Balakən rayonunda təntənəli tədbir keçirildi. Dövlət Aqrar İnkişaf Mərkəzinin nəzdində fəaliyyət göstərən kənd təsərrüfatı işçiləri Dağüstü parkda bir araya gələrək bu əlamətdar günü birlikdə qeyd etdilər.

Tədbirdə Balakən Rayon İcra Hakimiyyətinin səlahiyyətlərini müvəqqəti icra və rayona rəhbərlik edən Turan Dibirov da iştirak etdi. O, tədbir iştirakçıları ilə birlikdə ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək gül dəstələri qoydu və xatirəsini ehtiramla andı.

Daha sonra Turan Dibirov çıxış edərək kənd təsərrüfatı sahəsində çalışan əməkçiləri peşə bayramı münasibətilə təbrik etdi. O, Balakən rayonunun qarğıdalı, tütün və baramaçılıq sahələrində respublika miqyasında ön sıralarda yer aldığını vurğuladı. Rayonun kənd təsərrüfatı işçilərinin ölkə iqtisadiyyatına verdiyi töhfələrdən danışaraq onların zəhmətini yüksək qiymətləndirdi.

Turan Dibirov həmçinin Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşlarının bölgədə yayılmış Ağ Amerikan kəpənəyi və Qəhvəyi mərmər bağacığına qarşı apardıqları uğurlu mübarizə tədbirlərini qeyd etdi. Kənd təsərrüfatının həyatımızdakı strateji əhəmiyyətini vurğulayan Turan Dibirov bu sahədə çalışanlara gələcək fəaliyyətlərində uğurlar arzuladı.Kollektivin 47 il əmək stajı olan Solmaz xanım Turan Dibirova onlara göstərdiyi diqqətə,qayğıya görə,təbrikə gəldiyi və peşə bayramında onlarla birlikdə olduğu üçün kollektiv adından təşəkkür etdi.

Tədbirin sonunda iştirakçılar xatirə olaraq kollektiv foto çəkdirdilər.

Bu bayram yalnız bir peşənin deyil, torpağa bağlılığın, zəhmətə verilən dəyərin bayramıdır. Balakənin kənd təsərrüfatı işçiləri bir daha sübut etdilər ki, əkinin, biçinin, mübarizənin arxasında böyük ürək və vətən sevgisi dayanır. Onların əməyi ilə torpaq yaşar, bölgə inkişaf edər, gələcək qurular.

**Yeni Balakən**

# ”Vahid Həmişə Bizimlədir” – Şəhidin Doğum Günündə Xatirə Tədbiri

10 noyabr 2025-ci il tarixində Balakən Şəhidlər Xiyabanında şəhid Vahid Əlisoltanovun doğum günü münasibətilə anım tədbiri keçirildi. Beş ildir ki, Vahid doğum gününü cənnətdə qeyd edir, biz isə onun məzarı başında, dualarla, xatirələrlə və qürurla.

Tədbirdə Vahidin ailə üzvləri, Balakən Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini müvəqqəti həyata keçirən Turan Dibirov və əməkdaşları, millət vəkilinin köməkçisi Yusif Mirzəyev, şəhid ailələri, qazilər, din xadimləri, döyüş yoldaşları və ictimaiyyət nümayəndələri iştirak etdilər. Məzar önünə gül dəstələri düzüldü, ruhuna dualar oxundu. Gənclər və məktəblilər Vahidin qəhrəmanlığını əks etdirən şeirlər səsləndirdilər, rəhbərlik və şəhid valideynləri duyğulu çıxışlar etdilər.

Balakən Cümə Məscidinin dini ayinlərini icra edən Rövşən İbrahimov şəhidlərimizin ruhuna Quran ayələri oxudu. Ardınca Turan Dibirov Vahid Əlisoltanovun vətənə olan sevgisindən, fədakarlığından və gənclərə örnək olan həyat yolundan danışdı. Abşeron rayonundan tədbirə qatılan şəhid Qadir Heydərovun atası Ədalət Heydərovun çıxışında acı ilə yanaşı, qürur və fəxarət hissləri də duyulurdu. Oğlunun yüksəklərə dikdiyi Azərbaycan bayrağına baxan məğrur duruşu, şəhidlik zirvəsinin böyüklüyünü bir daha göstərdi.

Ədalət ata tədbirdə iştirak edən hər kəsə təşəkkürünü bildirdi. Turan Dibirov isə cavab olaraq Prezident İlham Əliyevin Qarabağla bağlı çıxışlarını xatırladaraq vurğuladı ki, bu zəfər şəhidlərin canı, qazilərin qanı bahasına qazanılıb. O, həmçinin qeyd



etdi ki, dövlət başçısının gündəlik iş qrafiki ilə müqayisədə bizim etdiklərimiz sadəcə borcumuzun yerinə yetirilməsidir.

Şəhid Kamalın anası Zümrüd müəllimə isə respublika üzrə şəhid analarının bir-biri ilə əlaqədə olduğunu, birliyə sahib olduqlarını vurğuladı. Bu birlik, övladlarının Vətəni birlikdə azad etməsinin təbii davamıdır.Sonda Tahir ata Turan müəllimə,Nəsib müəllimə,tədbirdə iştirak edən hər kəsə Vahidin doğum günündə onlarla birgə, yanında olduqlarına görə təşəkkür etdi.

Tədbir boyunca duyğulu anlar yaşandı – göz yaşları ilə yanaşı, qürur dolu baxışlar da vardı. Vahid Əlisoltanovun adı Balakənin yaddaşına qəhrəmanlıqla yazılıb. Onun doğum günü artıq təkcə ailəsinin deyil, bütün rayonun xatirə gününə çevrilib.

Vahid bu gün fiziki olaraq aramızda olmasa da, onun ruhu, adı və əməlləri hər birimizin qəlbində yaşayır. Biz onu unutmadıq, unutmayacağıq. Çünki Vahid təkcə bir şəhid deyil – o, Balakənin qüruru, Azərbaycanın igid oğludur.

Ruhun şad olsun, Vahid. Adınla fəxr edirik.

**Yeni Balakən**

# Vətən Müharibəsi Qəhrəmanı, şəhid Amin Novruzovun anım mərasimi

Balakən rayonunda Vətən Müharibəsi Qəhrəmanı, şəhid Amin Novruzovun anım mərasimi keçirilmişdir. Şəhidlər Xiyabanında keçirilən tədbirdə şəhidin ailə üzvləri, rayon icra hakimiyyətinin başçısı səlahiyyətlərini icra edən Turan Dibirov, hüquq - mühafizə orqanlarının rəhbərləri, idarə və müəssə rəhbərləri, Amin Novruzovun döyüş yoldaşları və rayon əhalisi iştirak etmişdir. Tədbir Şəhidlər Xiyabanında şəhidlərin ruhuna oxunan dualarla başladı. Daha sonra rayon Mərkəzi Cümə məscidinin nümayəndəsi Rövşən İbrahimov şəhidlərin əziz xatirəsi üçün müqəddəs Qurani - Kərimdən ayələr oxudu. Tədbiri giriş sözü ilə açan Balakən rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Turan Dibirov Amin Novruzovun igidliyi haqqında danışdı. Turan Dibirov qeyd etdi ki, Amin Novruzov öz canını vətən yolunda fəda edərək şəhidlik mərtəbəsinə yüksəlmişdir. Bu igid bütün Azərbaycan xalqının yaddaşında ədəbi qalacaqdır. Turan Dibirov dövlətimizin şəhid ailələri və qazilərə olan diqqətindən söz açaraq bu məsələnin birbaşa cənab prezidentin diqqətində olduğunu söylədi. Daha sonra tədbirdə çıxış edən Dövlət Sərhəd Xidmətinin baş idarə rəisi, general - mayor Zaur Zeynalov ilk öncə Dövlət Sərhəd Xidmətinin rəisi, general - polkovnik Elçin Quliyevin salamlarını çatdırdı. Daha sonra çıxış edən general Amin Novruzovun döyüş yolundan söz açaraq onun igidliyinin gənc sərhədçilər üçün nümunə olduğunu söylədi. Qəhrəman şəhidin hər zaman nümunəvi xidməti ilə seçildiyini, onun xüsusi olaraq hər zaman öz döyüş yoldaşları arasında fərqləndiyini qeyd etdi. General Azərbaycan dövlətinin hərbçilərə olan dəstəyindən söz açdı. Dövlə- timizin hər zaman şəhid ailələrinin, müharibə veteranlarının yanında olduğunu bildirdi. Zaur Zeynalov qeyd etdi ki, Amin Novruzov kimi igidlərin döyüş yolu böyük bir məktəbdir və onun adı daim yaşayacaqdır. Çıxış edən şəhidin atası Tacəddin Novruzov göstərilən diqqət və qayğıya görə rayon rəhbərliyinə və DSX rəhbərliyinə öz təşəkkürünü bildirdi. Oğlunu yad etmək üçün gələnlərə təşəkkür edən şəhid atası Aminin hər zaman igidlik ruhunda olduğunu, vətən üçün canını verməyə hazır olduğunu bildirdi. Aminin böyük idealları olduğunu, vətənin bütövlüyü, torpaqların azad edilməsi arzusunu isə bütün ideallardan yüksəkdə durduğunu bildirdi. Tədbirdə çıxış edən Kortala kənd məscidinin imamı Həbib əfəndi rayonda vətən müharibəsi qəhrəmanı adına layiq görülən 5 nəfərin olduğunu, Amin Novruzovun isə uca Allahın ən böyük mərtəbəsinə, şəhidlik zirvəsinə yüksəldiyini qeyd etdi. Daha sonra şəhidin qardaşı, DSX - nın giziri Qabil Novruzov çıxış etdi. O, qeyd etdi ki, hərbiçilər hər zaman şəhidlərin igidliyindan danışırlar. Onun üçün öz qardaşının igidliyindən danışmaq



başqa bir qürurdur. Qabil Novruzov qeyd etdi ki, qardaşının igidliyi gənc əsgərlər üçün bir örnəkdir. Anım mərasimi şəhidin evində ehsan süfrəsinin verilməsi ilə başa çatdı.

**Zeynal Əmralıyev**
**Tarixçi-Politoloq**

# “AyMed” klinikasında “Erkən müayinə can qurtarır!” adlı səyyar tibbi müayinə və maarifləndirici aksiya




1 noyabr 2025-ci il tarixində Balakən şəhərində “AyMed” klinikasında “Erkən müayinə can qurtarır!” adlı səyyar tibbi müayinə və maarifləndirici aksiya keçirilib. Aksiya PAŞA Holding və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin dəstəyi ilə baş tutub. Lokal dəstək isə “AyMed” klinikası və onun rəhbəri doktor Elşən Kərimov tərəfindən göstərilib.

Bu təşəbbüsün əsas məqsədi bölgədə ictimai sağlamlıq biliklərini artırmaq, erkən diaqnozun vacibliyinə diqqət çəkmək və yerli əhaliyə daha əlçatan tibbi xidmətlər təqdim etməkdir.

Tam ödənişsiz tibbi xidmətlər aşağıdakı sahələri əhatə edib:

- Qanda şəkər səviyyəsinin və arterial təzyiqin yoxlanılması;
- İlkin laborator analizlər;
- Terapevt və endokrinoloq müayinələri;
- Qalxanvari vəzin USM müayinəsi;
- Ginekoloji müayinələr;
- Travmatoloji müayinələr;
- Oftalmoloji xidmətlər.

Saat 10:00-dan 17:00-dək davam edən tədbirdə Balakən rayonunun sakinləri böyük maraq göstəriblər. 1023 nəfər müayinədən keçib.Aksiyaya qatılan insanlara sağlamlıqla bağlı fərdi məsləhətlər verilib və sağlamlıqları ilə bağlı müvafiq sahələrə yönləndirmələr edilib.

Aksiya zamanı səyyar həkim heyəti risk qrupunda olan şəxsləri müəyyən edərək, onlara fərdi sağlamlıq planları təqdim edib. Qanda şəkər səviyyəsi normal olmayan 263 nəfərə qlükometr cihazları hədiyyə edilib. Bu, onların gündəlik qlikemik nəzarət aparmasına və uzunmüddətli fəsadların qarşısının alınmasına kömək edəcək.



**Yeni Balakən**

# Balakən RMX-da vətəndaş qəbulu



Balakən Rayon Mərkəzi Xəstəxanasının direktoru Dilbər Quliyeva qəbul qrafikinə uyğun olaraq vətəndaşları qəbul edib.

İlk olaraq şəhid ailələri növbədənkənar qəbul olunub. Vətəndaşların müraciətləri diqqətlə dinlənilib. Onların şikayətləri əsasən müayinə, müalicə, dərman təminatı, iş və əmək münasibətləri ilə bağlı olub.

Qanunvericiliyə uyğun olaraq müraciətlərə baxılması məqsədilə müvafiq tapşırıqlar aidiyyəti şöbələrə verilib.

**Yeni Balakən**

# “Qəhrəmanlıqla yazılan tale: Şəhid Nəcməddin Sarkayevin anım günü Şərif kəndində qeyd olundu”

Balakən rayonunun Şərif kəndində bu gün Vətən müharibəsinin qəhrəman şəhidlərindən biri – Sarkayev Nəcməddin Əli oğlunun anım günü keçirildi.

Tədbir şəhidin məzarı önündə, Şərif kənd qəbiristanlığında baş tutdu. Mərasimə Balakən Rayon İcra Hakimiyyətinin müvəqqəti səlahiyyətli rəhbəri Turan Dibirovun başçılığı ilə RİH nümayəndələri, din xadimləri, YAP Balakən təşkilatının və ASAN xidmətin əməkdaşları, Qabaxçöl Polis Bölməsi,Gənclər İdarəsi, şəhid ailələri, qazilər, məktəb kollektivi və kənd ictimaiyyəti qatıldı.

Çıxış edən Turan Dibirov Nəcməddin Sarkayevin Vətənə olan sevgisindən, dövlətə sədaqətindən və cəbhədə göstərdiyi rəşadətdən danışaraq onun bizə zəfəri bəxş edən igidlərdən biri olduğunu vurğuladı. O, Prezident İlham Əliyevin şəhidlərə olan ehtiramından və şəhid ailələrinə göstərilən diqqətdən də söz açdı.

Qabaxçöl Polis Bölməsinin rəisi Vilayət müəllim şəhidin anası Tinay müəlliməyə yaxınlaşaraq duyğulu bir çıxış etdi: “Ana, ağlama, başını dik tut. Sənin oğlun qəhrəmandır.” Bu sözlər tədbir iştirakçılarının qəlbində dərin iz buraxdı.



Tinay müəllimə oğlunun döyüş yoldaşlarının xatirələrindən danışarkən, Nəcməddinin qorxmazlığı və hünəri bir daha qürur hissi oyatdı. Əsgər yoldaşlarının “Nəcməddin, bir az istirahət edək, sonra yenə döyüşərik” sözlərinə o, “Yox, bütün postları almalıyıq, düşməni məhv etməliyik” cavabını vermişdi. Gün ərzində bir neçə postu, o cümlədən bir erməni generalının olduğu mövqeni ələ keçirən Nəcməddin, sonuncu post uğrunda gedən döyüşdə qəhrəmancasına şəhid oldu. Lakin onun arzusu gerçəkləşdi: Vətən torpağı işğaldan azad edildi.

Şəhidin atası Əli Sarkayev tədbir iştirakçılarına təşəkkür edərək, oğlunun xatirəsinə göstərilən ehtirama görə minnətdarlığını bildirdi.

Tədbir şəhidin evində təşkil olunan ehsan süfrəsi ilə başa çatdı. Bu mərasim bir daha göstərdi ki, xalqımız öz qəhrəmanlarını unutmur, onların xatirəsini yaşadır və gələcək nəsillərə örnək kimi təqdim edir.

**Ramazan Abal**

# Vətən uğrunda canını fəda edən igid: Faiq İbadovun anım günü keçirildi

Balakən rayonunun Sarıbulaq kəndində doğulmuş və Vətən uğrunda şəhid olmuş Faiq İbadovun xatirəsi bu gün doğma kəndində ehtiramla anıldı.

Faiq İbadov 1993-cü il mayın 31-də Sarıbulaq kəndində dünyaya göz açıb. 1999-2010-cu illərdə M.F.Axundov adına Sarıbulaq kənd tam orta məktəbində təhsil alaraq, gənclik illərini vətənə sevgi ilə yoğrulmuş bir mühitdə keçirmişdir. 2011-ci ildə müddətli həqiqi hərbi xidmətə çağırılan Faiq, 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsində xidmət etmişdir.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən Faiq İbadov, oktyabrın 1-də qəhrəmancasına şəhid olmuşdur. Doğma Sarıbulaq kəndində torpağa tapşırılan igid əsgər, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra “Vətən uğrunda” medalı ilə təltif edilmişdir.

Ailəli olan Faiq İbadovun bir oğlu — İsmixan, ondan bizə yadigardır.

Bu gün Sarıbulaq kəndində şəhidin anım günü münasibətilə tədbir keçirildi. Tədbirdə Balakən Rayon İcra Hakimiyyəti, Sarıbulaq kənd tam orta məktəbi, Peşə məktəbi, YAP Balakən rayon təşkilatı, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, rayon polis şöbəsi, din xadimləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, qeyri-hökumət təşkilatları, kənd ictimaiyyəti və şəhid ailələri iştirak etdilər.

Məktəblilər və şəhidin oğlu İsmixan tədbirdə atasına həsr olunmuş şeirlər səsləndirdilər. Qonaqlar çıxış edərək Faiq İbadovun qəhrəmanlığından, onun Vətənə olan sevgisindən və gənclərə örnək olan həyat yolundan danışdılar. Tədbir şəhidin evində keçirilən dini mərasimlə yekunlaşdı.

**Ramazan Abal**



# Balakəndə şəhid ailələri ilə səmimi görüş



Bu gün Balakən Rayon İcra Hakimiyyətində (RİH) şəhid ailələri ilə geniş tərkibdə görüş keçirildi. Görüşdə həm Birinci Qarabağ, həm də İkinci Qarabağ müharibəsinin şəhid ailələri iştirak edirdi.

Tədbiri giriş sözü ilə açan rayon icra başçısı Natiq Ağayev şəhid ailələrini görməkdən və tanımaqdan məmnunluq duyduğunu bildirdi. O, hər bir ailəni dinləməyə, onların problemlərinə dəstək olmağa və kömək etməyə hazır olduğunu vurğuladı.

Başçı öz həyat yolundan da söz açaraq 35 ilini hərbi xidmətə həsr etdiyini, Birinci Qarabağ müharibəsinin iştirakçısı olduğunu, Dövlət Təhlükəsizlik Xidmətində mühüm tapşırıqlar yerinə yetirdiyini qeyd etdi. "Müharibə mövzusu mənə yad deyil, od-alovun içindən çıxmışam," – deyə o, şəhid ailələrinin dərdini daha dərindən anladığını ifadə etdi.

Sadəliyi və təvazökarlığı ilə seçilən Natiq müəllim işçilərinə və digərlərinə ona "cənab başçı" deyə müraciət etməyi qadağan edərək, xalqa xidmət üçün göndərildiyini, səmimiyyətini isə tədbir boyu ayaq üstə dayanaraq göstərdi. İki saata yaxın davam edən görüşdə şəhid ailələrinin problemləri dinlənildi, bir çox məsələlərin yerindəcə həllinə göstəriş verildi, digərlərinə isə qanun çərçivəsində izahlar verildi.

Başçı ailələrə tövsiyə edərək bildirdi: "Şəhidlik müqəddəs məqamdır. İcazə verməyin ki, kimlərsə bu adı şəxsi məqsədləri üçün istifadə etsin."

Şəhid ailələrinin irəli sürdüyü təkliflərin bir çoxu artıq Balakən üçün planlaşdırılan işlər siyahısında idi. Natiq Ağayev yaxın günlərdə rayonun su-kanalizasiya sisteminin yenidən qurulacağını, su probleminin həll olunacağını müjdələdi.

Çıxış edən ailələr başçını "Balakənə xoş gəldiniz" sözləri ilə salamlayaraq ona uğurlar arzuladılar. Cavabında Natiq Ağayev vurğuladı: "Çalışdığım bütün sahələrdə birinci olmuşam, ən yüksək mükafatlara layiq görülmüşəm. Burada da üzü ağ, alnı açıq işləyəcəyəm. Fəaliyyətim həm sizlər həm də Prezident qarşısında şəffaf olacaq və bunu bütün qurumlardan da tələb edəcəyəm."

O, Balakənə təyin olunmağından qürur duyduğunu, yeni iş yerlərinin açılacağını, rayonun nümunəvi bölgəyə çevriləcəyini bildirdi. "Əziz şəhid ailələri, mənim uğurlarımda sizin dəstəyiniz vacib və arzulanandır. Güvənimiz qarşılıqlı və dəyərlidir," – deyə icra başçısı çıxışını tamamladı.

**Yeni Balakən**

# Bayram günündə seçicilərlə görüş: Nəsib Məhəməliyev Balakənin Şambul və Meşəşambul kəndlərində vətəndaşların səsini dinlədi

Bayram günündə istirahət etməyi seçmək əvəzinə, Milli Məclisin deputatı Nəsib Məhəməliyev Balakən rayonunun Şambul və Meşəşambul kəndlərinə səfər edərək vətəndaşlarla birbaşa görüş keçirdi. Bu addım, onun seçicilərə olan sadiqliyinin və daim əlçatan olmasının bariz nümunəsidir.

Görüşlərin əvvəlində Nəsib müəllim kənd sakinlərini bu iki mötəbər bayram münasibətilə təbrik etdi. O, Balakəndə, doğma seçicilərinin arasında olmağın, bayram sevincini onlarla paylaşmağın onun üçün xüsusi önəm daşıdığını vurğuladı. Bu, sadəcə bir rəsmi qəbul deyil, həm də xalqla birgə olmağın, onların sevincinə və dərdinə şərik çıxmağın təcəssümüdür.

Hər iki kənddə keçirilən vətəndaş qəbulu zamanı sakinlər müxtəlif sahələrdə üzləşdikləri problemləri, gündəlik həyatlarında qarşılaşdıqları çətinlikləri deputata çatdırdılar. Nəsib Məhəməliyev:

Bəzi məsələləri yerindəcə həll etdi,bəzilərinin icrasını köməkçisinə tapşırdı,

Vaxt tələb edən müraciətləri isə aidiyyəti qurumlar qarşısında qaldıracağına söz verdi.



Bu yanaşma, onun seçicilərə olan məsuliyyətini və səmimi münasibətini bir daha nümayiş etdirdi.

Deputatın seçicilərlə ünsiyyəti yalnız üz-üzə görüşlərlə məhdudlaşmır. O, köməkçisi vasitəsilə və sosial şəbəkə hesabları üzərindən də daima əlaqədə olur. Bu, müasir kommunikasiya vasitələrindən səmərəli istifadə edərək vətəndaşların səsini hər zaman eşitmək istədiyinin göstəricisidir.

Şambul və Meşəşambul kəndlərində keçirilən bu görüşlər, yerli sakinlərin deputatla birbaşa təmas qurmasına, problemlərini şəxsən çatdırmasına imkan yaratdı. Bu, həm də kəndlərin ictimai həyatında aktivliyin və vətəndaş iştirakçılığının artmasına xidmət edir.

**Ramazan Abal**



# Natiq Ağayev işinə yol açmaqla başladı

Yazılarımızın birində qeyd etmişdik S.Gözəlov küçəsindəki vəziyyətdən, küçə ticarətindən, səbəblərindən və sairə barədə yazacağıq,geniş müzakirə edəcəyik deyə. Anonsunu verdiyimiz hər mövzunu ətraflı ələ alacağıq gedişata nəzərən.

Bilidiyimiz kimi rayon rəhbəri dəyişdi,bu dəyişiliklə bərabər Balakənlilərin ümidləri cücərdi, müsbətə, yaxşıya doğru olmasını istədiyi,ümid etdiyi, arzuladığı bir çox gözləntiləri də varlığını hiss etdirməyə başladı. İstəklərdən biri S.Gözəlov küçəsində bazarın qarşısındakı 15 il davam edən əcaib, diskonfort vəziyyətin, eybəcərliyin düzəlməsi idi.Nəhayət ki,rayona yeni təyin olunan başçı Natiq Ağayevin sakinlərin gözləntilərinin,arzularının reallaşmasına doğru atdığı ilk addımlarından biri 15 illik küçə ticarətini, S.Gözəlov küçəsindəki xaotik, eybəcər vəziyyəti düzəltməsi, küçəni qaydaya salması oldu. İndi bazarın qabağı güllük, gülüstanlıqdır. Səliqə, səhman, qayda, qanun. Maşın dayanacaqları üçün xətlər çəkilib, qanunsuz nə qədər quraşdırılmış əlavələr vardısa hamısı sökülüb, avtomobil yolunun içindəki və səkilərdəki ticarət tamamilə yığışdırılıb. Bu əməli işə, mənzərəyə baxanda sanki başçının daxili aləmini, mədəniyyətini,Balakənə yanaşmasını,Balakənliyə xidmətini, işinə məsuliyyətini, dövlət başçısına verdiyi sözə, vədə sədaqətini görürsən. Hər kəsə ləzzət edir bu gözəllik,səliqə-səhman, rahatçılıq. Amma hər kəsdə bir əndişə, narahatçılıq da var ki, bu gözəlliyin ömrü nə qədərdir?..

Natiq Ağayevin daha gözəl bir addımı isə,mən bunun maddi, texniki tərəfindən daha çox mənəvi tərəfini dəyərləndirirəm. Belə ki, uzun illər az qala sovetlər dönəmindən (Nəsib Məhəməliyevin icra başçısı olduğu dövr: 2001-2006-cı illər istisna olmaqla) bağlı qalan bir küçə vardı, indiki adıyla Zərifə Əliyeva küçəsi. Küçənin bağlı qalmasına bahənə kimi səbəb o küçədə məktəb girişinin olması deyilirdi amma əsil səbəbi isə o küçədə gələn bütün başçıların qaldığı, qalması üçün nəzərdə tutulan evin olması idi. "Padişahlar" istəmirdilər maşın səsləri onları narahat etsin, Zərifə xanımın adını daşıdığı küçəni ancaq özləri üçün istifadə edirdilər. Natiq Ağayev o mifi dağıtdı, küçəni açdı, giriş-çıxışı əngəlləyən şlaqbaumu sökdürüb atdırdı. Beləliklə həm Zərifə Əliyeva adının hörmətini, həm də o küçədə hərəkət edəcək sakinlərin rahatçılığını qaytardı. Məktəbin giriş hissəsində küçəyə sürəti məhdudlaşdırıcı fiziki əngəl quraşdırıldı, küçə bir tərəfli hərəkətə istiqamətləndirildi, yol hərəkəti nişanları taxıldı. Son 15 ildə yığılan, qalaqlanan problemlərin kiçicik hissəsi idi bunlar...

Nə deyək, gözəl başladı Natiq Ağayevin ilk işləri, ilk günü. Xalq deyir ki,davamı gəlsin. Görünən odur ki,hörmətli başçının hələ görəcəyi çox işi var. Uğurlar arzulayırıq.

Balakən tarixinə yol açan biri kimi düşmək gözəldir.

**Ramazan Abal**

# 2025-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA BALAKƏN RAYONUNUN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ GÖSTƏRİCİLƏRİ

**Ümumi məhsul buraxılışının həcmi** 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 2025-ci ilin yanvar-sentyabr aylarında *ilkin hesablamalara görə* 0,7 faiz azalaraq 249234,5 min manat təşkil etmişdir. ***Məhsul buraxılışının 23,0 faizi sənaye, 0,7 faizi tikinti, 41,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 1,2 faizi informasiya və rabitə, 30,7 faizi isə ticarət; nəqliyyat vasitələrinin təmiri sahələrində istehsal edilmişdir.***

**Sənaye** müəssisələri və bu sahədə ***fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən*** 2025-ci ilin yanvar-sentyabr aylarında 57292,3 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 22,9 faiz çox sənaye məhsulu istehsal edilmişdir.

*Sənaye məhsulunun 87,0 faizi emal sektorunda, 11,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 1,2 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunmuşdur.*

**Kənd təsərrüfatı** məhsullarının yığımı davam edir və oktyabr ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 45008,0 ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,4 faiz çox dənli, dənli paxlalı və yağlı bitkilər, 3011,0 ton (54,8 faiz az) kartof, 10244,0 ton (58,5 faiz az) tərəvəz, 1905,0 ton (54,9 faiz az) bostan məhsulları, 19799,8 ton (8,4 faiz çox) meyvə və giləmeyvə və 336,0 ton (2,4 faiz çox) üzüm və 118,7 ton (12,7 faiz çox) tütün yığılmışdır.

2025-ci ilin yanvar-sentyabr aylarında diri çəkidə 3325,6 ton ət, 16908,0 ton süd, 8325,0 min ədəd yumurta və 77,0 ton yun istehsal edilmişdir. 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə ət istehsalı 19,6 ton və 0,6 faiz, süd istehsalı 136,7 ton və ya 0,8 faiz, yumurta istehsalı 196,0 min ədəd və ya 2,4 faiz və yun istehsalı 1,0 ton və ya 1,3 faiz artmışdır. 2025-ci il oktyabrın 1-i vəziyyətinə rayon üzrə 36891 baş qoyun və keçi, 27355 baş iribuynuzlu mal-qara, ondan 13016 baş inək və camış mövcud olmuşdur.

2025-ci ilin yanvar-sentyabr aylarında **əsas kapitala** 8779,4 manat məbləğində, yaxud əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 35,7 faiz çox investisiya yönəldilmişdir.

**Nəqliyyat sektorunda** fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 2025-ci ilin yanvar-sentyabr aylarında 530,0 min ton **yük** və 5535,0 min **sərnişin** daşınmışdır. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 6,4 faiz, sərnişin daşınması isə 5,5 faiz artmışdır.

**İnformasiya və rabitə** müəssisələri tərəfindən **2025-ci ilin yanvar-sentyabr aylarında** 3042,1 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,6 faiz çox xidmət göstərilmişdir.

**nformasiya və rabitə** müəssisələri tərəfindən **2025-ci ilin yanvar-sentyabr aylarında** 3042,1 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,6 faiz çox xidmət göstərilmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında **pərakəndə ticarət** şəbəkəsindən əhaliyə 239518,1 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 55442,7 min manatlıq **ödənişli xidmət göstərilmişdir. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə** əmtəə dövriyyəsi 0,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,8 faiz artmış, ticarət şəbəkəsində 160942,9 ***min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları 78575,2 min manatlıq qeyri-ərzaq malları satılmışdır.***

2025-ci ilin yanvar-avqust aylarında muzdlu işçilərin **orta aylıq nominal əməkhaqqı** 2024-cü ilin müvafiq dövrünə nisbətən 9,2 faiz artaraq 618,6 manat təşkil etmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında **əhalinin sayı** ilkin hesablamalara görə 184 nəfər və ya 0,2 faiz artaraq 2025-ci il oktyabr ayının 1-i vəziyyətinə 101203 nəfərə çatmışdır.

*Əsəbəli Alqayev*
*Balakən Rayon Statistika İdarəsinin rəisi*

## İTMİŞDİR

Mehdiyev Şamil Nəriman oğlunun adına verilmiş **SX 0745223** nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.

## E L A N

Balakən şəhər Bələdiyyəsi Kompüter operatoru vəzifəsinə işçi axtarır.

**MƏSUL REDAKTOR: Ramazan ABALOV**

**Ünvanımız: Balakən şəhər. Nəsimi küçəsi 31b**
**www.yeni balaken.az**
**ramazanabal@gmail.com**
**Mob: 050 518 17 60**

**HESAB NÖMRƏMİZ:**
**VÖEN 3800335882**
**H/h AZ60IBAZ41040019449452514345**
**Azərbaycan Beynəlxalq Bankın Balakən Filialı.**
**Kod 805959, VÖEN 9900001881.**
**M/h AZ03NABZO1350100000000002944. IBAZAZ2X**

**Qeydiyyat №: 7CADF329A82153**
Qəzet Mingəçevir şəhər Poliqrafiya müəssisəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj 100**